Qardaş türk folklorundan örnəklər

İQNATS KUNOŞUN "TÜRKÇE NİNNİLER"İ

İqnats Kunoş 1860-cı ildə Macarıstanın Hajdu bölgəsinin Samson əyalətində bir yəhudi ailəsində dünyaya gəlmişdir. Uşaqlıq illərini Debreçendə keçirən İqnats Kunoş ilk və orta təhsilini Debreçen Kalvinist kollecində almış və 1879-cu ildə oranı bitirmişdir. 1980-ci ildə universitetə daxil olan Kunoşun əsərləri macar şivə və ləhcələrinin öyrənilməsində əvəzsiz mənbədir. Universitetdə təhsil aldığı illərdə (1880-1884) o, Macar dilinin fonetikası, qrammatikası və sözlərin etimologiyası haqqında bir sıra dəyərli əsərlər yazmışdır. Bu əsərlərə görə o, universitetin rəhbərliyi və Macar Elmlər Akademiyası tərəfindən təqaüd almış və mükafatlandırılmışdır. Kunoş universiteti bitirdiyi il filologiya elmləri doktoru elmi dərəcəsini almışdır.

İ.Kunoşun dərin biliklərə yiyələnməsində məşhur macar şərqşünası və türkoloqu A.Vamberinin təsiri böyük idi. O, 3 il ərzində A.Vamberinin dərslərində Osmanlı, uyğur, tatar və cagatay dillərini öyrənmiş və bu sahədə bir sıra tədqiqat əsərləri yazmışdır. Dilçilik sahəsində böyük uğurlara imza atan İ.Kunoşun həyatını Budapeştdə küçədə gəzərkən rastlaşdığı Türkiyədən gələn bir qənnadçı dəyişdirir. Alim bir qənnadı dükanına girir və dükanın sahibi ilə uzun-uzadı türk dilində söhbət edir. O, bu söhbət əsnasında qənnadçının danışdığı türkcənin müəllimi A.Vamberinin universitetdə onlara öyrətməyə çalışdığı türkcədən fərqli olduğunu anlayır.

1884-cü ildə İ.Kunoş Macar Krallıq Ali Müəllimlik məktəbində bir il əvəzləyici müəllim vəzifəsində çalışır, lakin akademik fəaliyyətini davam etdirməyi düşünür. O, Macarıstan Elmlər Akademiyasının həqiqi üzvləri olan müəllimləri Jozsef Budenzin, İqnat Qoldzieherin və Armin Vamberinin təkidi ilə Anadolu şivələrini və xalq dilini araşdırmaq məqsədi ilə Macarıstan Elmlər Akademiyasına müraciət edir. 1885-ci ildə isə araşdırma aparmaq üçün icazə alır və Osmanlı dövlətinə yola düşür. Ona bu işdə maddi və mənəvi dəstək olanlar arasında dostu Bernat Munkacsi, Budapeşt Yəhudi Cəmiyyəti, xüsusilə bu cəmiyyətin rəhbəri Mor Vormann, onun katibi, musəvi kimi tanınan məşhur şərqşünas İqnat Qoldzieherin və müəllimi Jozsef Budenzin əvəzsiz xidmətləri olmuşdur.

İ.Kunoş Budapeştdən Zimoni əyalətinə getmək üçün pulsuz qatar bileti, İmperatorluğun və Krallığın Buxarlı Gəmi şirkətindən Zimonidən Ruscuğa və Ruscuqdan Lom Palankaya (Bolqarıstan) qədər getmək üçün də pulsuz gəmi bileti ilə təmin edilmişdir. O, bu biletlerin müqabilində tədqiqatlarının nəticələrini Macarıstan Elmlər Akademiyasının bülletenində yayımlayacağına söz vermişdir.

İ.Kunoş Türkiyə səfərini Tuna sahillərində yerləşən əhalisinin əksəriyyətinin türk olduğu Ruscuqla başlamışdır. Burada yaşadığı müddətdə türk dilini və türk adət-ənənələrini öyrənmişdir. Ruscuqda Adaqala xalq türkülərini toplamışdır. Bu səyahətdən çox razı qalan alim xatirələrində yazır ki, bu səyahətdən

sonra o, yuxularında türkcə danışırdı. İ.Kunoş Ruscuqda təxminən 100 türkü toplamışdır. Onun bu toplama işində bölgənin dialekti mühafizə edildiyindən Türkiyə dialekt və şivələrinin öyrənilməsi baxımından bu işlər əvəzsiz mənbədir.

Qeyd edək ki, Adaqala Rumıniyanın Orşova şəhərinə yaxın Tuna çayının üzərində yerləşirdi. 1691-ci ildə Osmanlılar tərəfindən fəth edilmiş, 1878-ci il 13 iyunda imzalanmış Berlin traktatında kimə tabe olacağı unudulduğundan 1923-cü ildə Lozan sülh müqaviləsi ilə Rumıniyaya verilmişdi. Müdafiə məqsədi ilə salınan bu ərazi əhalisinin hamısının türklərdən ibarət olduğu yeganə bölgə idi. Əhali tütünçülük, qayıqçılıq, balıqçılıq və ticarətlə məşğul olurdu. Ada baraj suları altında qaldıqdan sonra əhalinin böyük bir hissəsi Türkiyəyə köç etmişdir.

Adaqalanın folkloru, etnoqrafiyası və dili haqqında ilk məlumatı məhz İ.Kunoş vermişdir. Onun yazdığına görə, adadakı evlər birmərtəbəli, kərpic tavanlı tikililərdir. Burada tək minarəli bir məscidin də olduğunu bildirir. Alim burada olduğu müddətdə adanın təxminən 600 nəfər sakini olduğunu, onların da getdikcə azaldığını yazır. Adaqalada bir həbsxananın olmasına baxmayaraq, həmişə boş imiş, yayın istisində insanlar oraya sərinləmək üçün toplaşırmışlar. Adada bir nəfər də olsun zəngin adam yox idi. Buna baxmayaraq, adada dilənçi də yox idi. Kunoş burada etnoqrafik ənənələri əks etdirən 60-dan çox fotoşəkil, 80 mənzum əsər, 100-dən çox türkü, 43 nağıl, tapmacalar, uşaq oyunları, batil inanclar toplamışdır.

Adaqala səfərinin ardından İ.Kunoş Varnaya yola düşmüşdür. Orada da türk əhalisinin folklorunu və etnoqrafiyasını dərindən öyrənmiş, ərazi ilə bağlı bir sıra dəyərli məlumatlar vermişdir. Alim Varna torpaqlarının tarixi haqda məlumat verərkən burada tarix boyu "mühüm bir türk nüfuzu"nun yaşadığını qeyd etmişdir.

A.Vamberi İ.Kunoşa dialektoloji araşdırmalarda nağıllar, hekayələr kimi xalq nəsrinin xalq şeirinə nisbətən daha gərəkli olduğunu bildirməklə onun tədqiqatlarını yönləndirməyə çalışmışdır. İ.Kunoş isə müəlliminin tövsiyəsinə əməl etmədən folklorun bütün janrlarını toplamış, bir tərəfdən bu mətnlər üzərində dialektoloji tədqiqatlarını davam etdirmiş, digər tərəfdən isə Avropa şərqşünaslarının, hətta türk alimlərinin də diqqətini çəkməyən xalq ədəbiyyatını toplayıb tanıtmağa çalışmışdır.

Sonrakı xatirələrində İ.Kunoş xalqın dilindən 220 türkü, 30 dastan topladığını bildirmişdir. İ.Kunoş 1885-ci ildə müəllimi Jozsef Budenzdən o günə qədər topladığı folklor nümunələrini Macarıstan Elmlər Akademiyasına verməsini və onların bir kitab şəklində yayımlanmasını xahiş edir. İ.Kunoşun fikrincə, kitabdan əldə olunan gəlir onun maddi sıxıntılarını az da olsa, ödəyəcəkdi. Qeyd edək ki, Kunoş məktublarının sonuna "Kadir Efendi" imzasını atırmış. Özünün dediyinə görə, ona Türkiyədə türkləşmiş macar deyirdilər və ona görə də belə adlandırırdılar.

Əslində bu kitabın 1885-ci ildə nəşr olunması nəzərdə tutulmuşdu. İ.Kunoş kitabın əlyazma variantını dostu Daniel Szilaqiyə oxuyub düzəlişlər etməsi üçün vermişdi, lakin Danielin qəfil ölümü bu işi yubandırdı. İstanbulun Timoni küçəsində sərraf dükanı olan Daniel Szilaqinin bu gözlənilməz ölümünün ardından dükanı dövlət rəsmiləri tərəfindən möhürləndi. Elə həmin gecə də

dükan qarət edildi və bir sıra dəyərli kitablar oğurlandı. Oğurlanmış kitablar arasında İ.Kunoşun "Üç Qaragöz oyunu" kitabı da var idi.

"Üç Qaragöz oyunu" kitabının oğurlandığı əsnada Kunoş artıq o günə qədər toplamış olduğu 300 türkü, "özəl" adlandırdığı bayatılar formasında 100 türkü (bekçi baba rəvayətləri), 200 tapmaca, 15 dastan və "Koroğlu" dastanından ibarət mətnləri nəşrə hazırlayırdı. Dostunun qəfil ölümündən kədərlənən İ.Kunoşun və onun müəllimi A.Vamberinin səyləri nəticəsində Daniel Szilaqinin kitablarını Macarıstan Elmlər Akademiyası satın almışdı. Szilaqi kolleksiyası bu günə qədər arxivin türk bölümünün ən böyük və ən dəyərli hissəsini təşkil edir.

1887-ci ildə isə Kunoş topladığı türk xalq ədəbiyyatı nümunələrindən "Koroğlu" hekayələrini, nağılları, tapmacaları və türküləri kitab şəklində nəşr etdirdi. "Osmanlı türk xalq ədəbiyyatından nümunələr" ("Oszmán-török népköltési gyüjtemény") adlanan bu kitabın ikinci cildi 1889-cu ildə işıq üzü gördü.

İ.Kunoşun topladığı materiallar arasında ən çox önəm verdiyi "Əsli və Kərəm" dastanı idi. Bundan başqa, İ.Kunoş 1886-cı ildə yazdığı məktubların birində o zamana qədər 80 nağıl topladığını bildirir.

1886-cı ildə İ.Kunoşun topladığı folklor mətnlərini nəşr etmək üçün yayın evləri, cəmiyyətlər və qurumlar (Olcsó Könyvtár, Budapeşt Szemle qəzeti, Kisfaludi Cəmiyyəti, Macarıstan Elmlər Akademiyası) növbəyə dururdular. Bu da ağır maddi sıxıntılar içərisində yaşayan alimin problemlərinin, az da olsa, həlli demək idi. 1887-ci ildə isə Macarıstan Elmlər Akademiyası İ.Kunoşa etdiyi cüzi maddi dəstəyi dayandırır. Bundan sonra o, Macarıstandakı qəzet və jurnallara məqalə yazır. Sonradan Macarıstan Elmlər Akademiyası adından Zsiqmond Simoni İ.Kunoşa rəsmi məktub yazaraq müəyyən qonorar müqabilində Osmanlı dövlətində baş verən siyasi hadisələr haqqında məqalələr yazmasını təklif etmiş, maddi sıxıntılar çəkməsinə baxmayaraq, Kunoş bu təklifi rədd etmişdi.

Fransız dostlarından biri onun "Qaragöz" oyunu ilə bağlı araşdırmalarını Parisdəki "Journal Asiatique" jurnalında yayımlamaq məqsədi ilə bu əsəri fransız dilinə tərcümə edir. Bunun ardından Parisdəki Şərqşünaslıq İnstitutu, xüsusilə də Pavet de Kortellenin və Kaşimir Adrian Barbier de Meinardın təşəbbüsü ilə Fransanın İstanbuldakı səfirliyi İ.Kunoşdan "Qaragöz"lə bağlı araşdırmalarının bir neçə nüsxəsini satın alır.

Xatirələrində İ.Kunoş bu illərdə dayanmadan xalq ədəbiyyatı nümunələrini topladığını, müəllimi Jozsef Budenzə daha 500 bayatı, 275 tapmaca göndərdiyini yazır. O, bu materialları o zamana qədər artıq iki cildi nəşr olunmuş "Osmanlı-türk xalq ədəbiyyatından nümunələr" adlı kitabının üçüncü cildinə salmağı düşünürdü. Bu cildi Macarıstanda nəşr etmək istəməyən İ.Kunoş müəlliminin də razılığı ilə Rusiyada yayımlamaq fikrində idi. Elə du yolla da o, V.V.Radlovla tanış olmuşdu. V.Radlov 1917-ci ildə çap etdirdiyi "Ensiklopedik lüğət"in bəzi hissələrini Anadolu şivəsi üzrə mütəxəssisləşmiş İ.Kunoşun yoxlamasını vacib hesab etdiyindən ona göndərmişdir. Bunun ardınca İ.Kunoş Anadolu və İstanbulda topladığı materialları alman dilinə tərcümə edərək Sankt-Peterburq Şərqşünaslıq İnstitutuna nəşr etmələri üçün göndərmişdir. V.Radlov məktublarının birində İ.Kunoşun Anadoludan topladığı "Koroğlu" və "Şah İsmayıl" dastanlarını "Mélanges Asiatiques" jurna-

lında (Sankt Peterburq) nəşr etdirməyi məsləhət görür, lakin İ.Kunoş V.Radlova "Əsli və Kərəm" və "Aşıq Qərib" dastanlarını göndərir.

İstanbulda epidemiya halında müşahidə edilən denge qızdırması[1] xəstəliyinə tutulan alim V.Radlovun sifarişi ilə topladığı materialları nəşrə hazırlamaqda çox əziyyət çəkmişdir. İ.Kunoş Türkiyədən Macarıstana qayıtdıqdan sonra araşdırmaları haqqında danışarkən qürurla deyir: "Anadolu və Balkan türklərinin xalq ədəbiyyatının, demək olar ki, bütün janrlarını birbaşa xalqın ağzından toplamağa və Avropa alimlərinin indiyə qədər tanımadığı bir çox türk dialekt və şivələrini üzə çıxarmağa müvəffəq oldum".

Macarıstana gəldikdən sonra müəllimləri A.Vamberi və J.Budenzin təqdimatı ilə 1890-cı ildə Budapeşt Universiteti Ədəbiyyat fakültəsində Türk dili və ədəbiyyatı müəllimi olaraq başladığı işinə sonradan Budapeşt Macar Kraliyyət Universitetində Türk dili və ədəbiyyatı ekspertizası sahəsinə dosent olaraq seçilmişdir.

İ.Kunoş 1889-cü ildən etibarən Parisdəki Asya Cəmiyyətinin (Société Asiatique), Alman-Şərq ölkələri Cəmiyyətinin (Deutschen Morgenländischen Gesellschaft), Helsinkidəki Fin-Ugor Birliyinin üzvü, Beynəlxalq Orta və Şərqi Asya Cəmiyyətinin (Nemzetközi Közép és Keletázsiai Társaság) rəhbəri, 1913-cü ildən isə İstanbul Elmlər Akademiyasının fəxri üzvü seçilmişdir. Macarıstanda nəşr olunan ən böyük ensiklopediyalardan olan Pallas Böyük Ensiklopediyasının və Revai Böyük Ensiklopediyasının türklərə aid maddələrini o hazırlamışdır.

Vətənə qayıtdıqdan sonra da toplayıcılıq fəaliyyəti ilə məşğul olan İ.Kunoş I Dünya müharibəsi illərində Macarıstan ərazisində türkdilli hərbi əsirlər arasında da folklor mətnlərinin toplanması işini davam etdirmişdir. Ən maraqlısı odur ki, o, Heb hərbi düşərgəsində kumuk əsirlərdən xalq mahnılarını toplamış və səsyazmanı fonoqrafik plastinkaya yazmışdır. Çox təəssüf hissi ilə qeyd etmək istərdik ki, Macarıstan Elmlər Akademiyasının Elmi Arxivində mühafizə olunan bu qiymətli material nə macarlar, nə türklər, nə də ruslar tərəfindən tədqiqata cəlb olunmayıb.

Kunoş ömrünün son illərini yenə də türk folkloruna, türk ədəbiyyatına həsr etmişdir. O, özünün də çox sevdiyi mövzu olan dərviş nağılları və hekayələri haqqında "Dərviş əfsanələri" ("Dervis legendák") adlı silsilə məqalə yazaraq çap etdirmişdir. Almanların yəhudiləri kütləvi qırmasından tutmuş, sovet ordusunun o ərazilərdə apardığı qanlı döyüşlərə qədər baş vermiş bütün hadisələrə baxmayaraq, İ.Kunoş yenə də yaradıcılıqla məşğul olurdu. Övladlarının verdiyi məlumata görə, o, küçələrdə gedən ağır döyüşlər zamanı silah-sursatın, top-tüfəngin sədaları altında vərəqi divara söykəyib yenə də yazırdı. Ölümünə 3 gün qalmış qələmi əlində çətinliklə tutmasına rəğmən, məqaləsini tamamlamağa cəhd göstərirdi.

İ.Kunoş 1945-ci il yanvarın 7-də Budapeştdə dünyasını dəyişmişdir.

Təqdim etdiyimiz ninnilər Nilgün Çıblak Coşqunun 2013-cü ildə Ankarada yayınlandığı İ.Kunoşun "Türkçe ninniler" əsərindən götürülmüşdür.

Qumru Şəhriyar

---

[1] Dange qızdırması – yüksək qızdırma, güclü əzələ-oynaq ağrıları, səpgi, hemorragiya və limfadenopatiya ilə təzahür edən təbii ocaqlı transmissiv xəstəlikdir.